İPƏK YOLU, No.1, 2024, səh.84-97
https://doi.org/10.30546/1810-911X.2024.1.84

# ƏMƏK MİQRASİYASI NƏZƏRİYYƏLƏRİ

**Günel Məmmədova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gunel-tmm86@mail.ru

**Xülasə.** Məqalədə müxtəlif mənbə və müəlliflərin təklif etdiyi miqrasiya nəzəriyyələrinin icmalı təqdim olunur, onların müqayisəli təhlil aparılır, üstünlükləri və çatışmazlıqları araşdırılır.

**Açar sözlər:** Neoklassik miqrasiya nəzəriyyəsi, Keyns yanaşması, ikili əmək bazarı nəzəriyyəsi, institusional nəzəriyyə, miqrasiya şəbəkələri nəzəriyyəsi.

**THEORIES OF LABOR MIGRATION**

**Gunel Mammadova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. The paper presents an overview of the migration theories proposed by various sources and authors, conducts a comparative analysis, examines their advantages and disadvantages.
**Keywords:** Neoclassical theory of migration, Keynesian approach, dual labor market theory, institutional theory, theory of migration networks.

**ТЕОРИИ ТРУДОВОЙ МИГРАЦИИ**

**Гюнель Мамедова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье представлен обзор миграционных теорий, предложенных различными источниками и авторами, проведен сравнительный анализ, рассмотрены их преимущества и недостатки.
**Ключевые слова:** Неоклассическая теория миграции, кейнсианский подход, теория двойного рынка труда, институциональная теория, теория миграционных сетей.

## 1. Giriş

Tarixin bütün mərhələlərində müxtəlif səbəblərdən insanların öz yaşayış yerlərinin kütləvi şəkildə tərk etməsi müşahidə olunur. Müasir dövrümüzdə qloballaşmanın geniş vüsət alaraq, ən ucqar coğrafiyaları əhatə etməsi, bir-birilə şiddətli rəqabət şəraitində olan transmilli şirkətlərin yaratdığı qlobal istehsal zəncirləri, iqtisadi inkişaf və sosial rifah səviyyəsində dünya regionları arasında kəskin fərq, səngiməyən lokal müharibə və konfliktlər miqrasiya proseslərini daha da gücləndirir. Həm göndərən, həm də qəbul edən ölkələrə həm müsbət, həm də mənfi təsirləri və bu səbəbdən miqrasiya proseslərinin tənzim olunma zərurəti bu sahədə irəli sürülən nəzəriyyələrin araşdırılmasını aktuallaşdırır.

İndiyədək universal miqrasiya nəzəriyyəsi yaradılmamışdır. Bunun əsas səbəbi kimi zəruri biliklər bazasının olmaması qeyd olunur [6, s.411]. Bu səbəbdən biz konkret nəzəriyyələrlə yanaşı bu nəzəriyyələrin formalaşdırılması üçün təklif olunan yanaşmaları da araşdırmağa çalışırıq.

## 2. Ravensteinin miqrasiya qanunları

Elmi ədəbiyyatda insanların miqrasiyasının ilk nəzəriyyəsini yaradan alim kimi alman əsilli Böyük Britaniya kartoqrafı Ernst Georg Ravenstein göstərilir. XIX əsrin ortalarında

Böyük Britaniyanın qraflıqlarında həyata keçirilən əhalinin siyahıya alınma verilənləri, həmçinin Şimali Amerika və Avropada aparılan sorğulardan yığılan geniş empirik məlumat bazasına əsaslanmaqla, o, uzun müddət üzərində işlədiyi miqrasiya konsepsiyasını 1885-ci ildə "Miqrasiya qanunları" adı altında London Statistik Cəmiyyətinin Jurnalında çap etdirmişdir [12]. Müasir tədqiqatçılar Ravensteinin əsərinə müraciət edərkən onun yanaşmasını təkmilləşdirən və müasir dövrümüzlə uzlaşdıran D.B. Griggin 1977-ci ildə çap etdirdiyi "E.G. Ravenstein və "miqrasiya qanunları" əsərinə [12] istinad edirlər. Biz də Ravensteinin miqrasiya qanunlarını Griggin məqaləsinə əsaslanmaqla şərh etməyə üstünlük veririk.

Beləliklə, Grigg Ravenstein bir qədər dəyişdirilmiş aşağıdakı miqrasiya qanunlarını təklif edir [5, s.42-43]:

1) Miqrantların əksəriyyəti yalnız qısa bir məsafəni qət edir. Ravenstein müşahidə edib ki, miqrantların 75%-i yaxın ərazilərə köçür. Bu tendensiya müasir dövrdə də güclüdür. Sadəcə, o, əsasən, daxili miqrasiyaya aid olur [13].

2) Miqrasiya addımbaaddım həyata keçir. Bu, o anlama gəlir ki, insanlar uyğun şərait tapana qədər iş axtarışı ilə bir yerdən başqa yerə köçür. Bu hökm tənqid olunsa da, müəyyən hallarda özünü doğruldur [13].

3) Uzun məsafəli miqrantlar ümumiyyətlə böyük ticarət və ya sənaye mərkəzlərindən birinə üstünlük verir. Ravensteinin qənaəti bundan ibarət olub ki, miqrantların 25%-i uzun məsafə qət edərək, London, hətta o dövrdə gedilməsi mümkün olan ancaq gəmi ilə Nyu-York kimi böyük liman şəhərlərinə gedib, orada qalmışlar. Bu meyil də müasir dövrdə də müşahidə olunur [13].

4) Hər bir miqrasiya axını onu kompensasiya edən əks axın yaradır. Ravensteinın "qarşılıqlı axın" adlandırdığı bu proses tərk olunan yerlərə miqrasiya (əsasən, daxili) və gedən miqrantların qayıtmasını nəzərdə tutur. Ravensteinin XIX əsrdə müşahidə etdiyi bu mühüm fenomen müasir tədqiqatçılar tərəfindən araşdırılır [13].

5) Şəhər sakinləri kənd sakinlərinə nisbətən köçə daha az meyllidir. Ravensteinin bu qənaəti müasir dövrdə təkzib olunur [13].

6) Qadınlar doğulduqları Krallıq daxilində kişilərə nisbətən daha çox köç edir, lakin onun hüdudlarından kənara kişilər daha çox çıxırlar. Ravensteinin gəldiyi bu nəticə onunla izah olunur ki, XIX əsrin sonlarında Böyük Britaniyada qadınlar ev qulluqçusu kimi və ya ərə getmə səbəbilə ölkə daxilində başqa ərazilərə köçürdülər. Kişilər isə daxili miqrasiyada az iştirak edir, əksinə ölkə hüdudlarından kənara, əsasən, onlar köç edirdi [13].

Daxili miqrasiyada qadınların üstünlük təşkil etməsi müasir dövrümüzdə də müşahidə olunur. Hindistanda daxili miqrasiya modelləri haqqında UNICEF-in hesabatına görə bu ölkədə aparılmış 2001-ci il siyahıyaalmanın nəticələrinə görə 309 milyon daxili miqrantın 70,7%-ni, yəni 218 milyonu qadınlar olmuşdur [14, s.8].

7) Miqrantların əksəriyyəti böyüklərdir: ailələr nadir hallarda doğulduqları bölgələrdən kənara köç edirlər. XIX əsr Böyük Britaniyasında xaricə köçənlərin əksəriyyəti 20 yaşdan çox

olanlar idi, ailə şəklində xarici miqrasiyaya az rast olunurdu. Müasir dövrdə, xüsusən kütləvi miqrantlar 15-35 yaş arasında şəxslərdir [13].

8) Böyük şəhərlər təbii böyümədən daha çox miqrasiya hesabına böyüyür. Hesab edirik ki, bu proses kapitalizmin inkişafı və buna uyğun olaraq böyük şəhərlərin formalaşmasının intensivləşdiyi XIX əsrə xasdır. Çağdaş dövrdə müəyyən qisim şəhərlər miqrantların hesabına böyüsə də, əksinə, öz əhalisinin doğumu hesabına böyüyən meqapolislər də az deyil. Bizim araşdırmalarımızdan əldə olunan qənaət ondan ibarətdir ki, birinci proses yeni formalaşan meqapolislərdə müşahidə olunur və bu, əsasən, inkişaf etməkdə olan ölkələrə xasdır. Öz əhalisi hesabına artım isə artıq formalaşmış meqapolislər üçün səciyyəvidir ki, bu da əsasən, inkişaf etməkdə olan ölkələrə xas olsa da, az gəlirli ölkələrdə də müşahidə olunur (sonuncuya misal Konqo Demokratik Respublikasının paytaxtı Kinşasanı göstərmək olar) [13].

9) Sənaye və ticarət inkişaf etdikcə, nəqliyyat yaxşılaşdıqca miqrasiyanın həcmi də artır. Bu, sözsüz ki, belədir. Nəqliyyatın təkmilləşməsi, sürətlərin artması miqrasiyanı stimullaşdıran amillərdəndir. Lakin burada maraqlı məqam var: bu amil uzaq məsafələrə miqrasiyanı artırsa da, bəzi hallarda qısa məsafələrə miqrasiyanı azaldır – rahat və sürətli nəqliyyat, o cümlədən şəxsi avtomobilin olması, yaşayış və iş yeri müxtəlif bir məntəqələrdə yerləşən şəxslərin iş yerinə miqrasiyasını lüzumsuz edə bilər. Buna misal olaraq Sumqayıtda yaşayıb Bakıda işləyən (və əksinə) şəxsləri gətirmək olar.

10) Miqrasiyanın əsas istiqaməti kənd təsərrüfatı bölgələrindən sənaye və ticarət mərkəzlərinədir. Bu meyil müasir dövrdə də geniş yayılmışdır.

11) Miqrasiyanın əsas səbəbləri iqtisadi səbəblərdir. Ravensteinin dövründə geniş yayılmış bu amil indi də aktual olaraq qalır – insanlar, əsasən, sadəcə iş və ya daha yaxşı iş ardınca ölkənin başqa bölgələrinə və başqa ölkələrə üz tutur.

Belliklə, Grigg Ravensteinin qanunlarının mənbələrini dərindən və tənqidi təhlil edərək, müasir dövrün miqrasiya üçün yaratdığı yeni reallıqlara baxmayaraq, Ravensteinin qanunlarının hələ də aktual olduğunu vurğulayır [5, s.54].

### 3. Neoklassik nəzəriyyə

Neoklassik nəzəriyyə əmək miqrasiyasının (o cümlədən beynəlxalq əmək miqrasiyasının - BƏM) əsas səbəbini iki region (ölkə) arasında əmək haqqı fərqi ilə izah edir, bu fərqin əsas səbəbi kimi isə kapitalın işçi qüvvəsi ilə müqayisədə artıqlığı göstərilir. Bu, əsasən, iki halda baş verir:

- İnkişaf etmiş ölkələrdə. Bu halın özünəməxsus xüsusiyyətləri var.

– Əvvəla, həm yüksək maliyyə imkanlarına görə, həm də innovativ texnologiyaların əsasən məhz bu ölkələrin şirkətləri tərəfindən kəşf olunmasına görə (məlum olduğu kimi aparıcı transmilli şirkətlərin əksəriyyəti inkişaf etmiş ölkələrə məxsusdur və innovativ məhsul və texnologiyalar, əsasən, belə şirkətlər tərəfindən ixtira olunur) bu ölkələrdə kapital bolluğu əmələ gəlir.

– İkincisi, yüksək məhsuldarlıq və bu ölkələrin əksəriyyətinin tarixən metropoliya olması səbəbilə bu ölkələrdə əmək haqqı müstəmləkə ölkələrilə müqayisədə dəfələrlə yüksək olmuşdur.

– Üçüncü mühüm məqam ondan ibarətdir ki, nəzəriyyədən də məlum olduğu kimi, yüksək əmək haqqı işçilərə az işləmək imkanı verir (qrafik 1). Belə ki, əgər yoxsul ölkələrdə insanlar bir neçə işdə, hətta istirahət günlərində də işləməyə məcburdurlarsa, yüksək gəlirli ölkələrdə insanların boş vaxtlarını asudəlikdə - istirahət və əyləncələrdə keçirməyə üstünlük verir. Xüsusən də çirkli işlərdə yerli əhalinin işləmək həvəsi çox aşağı olur ki, bu yerləri yoxsul immiqrantlar doldurur.




**Qrafik 1.** Fərdi əmək təklifinin qrafiki

– Nəhayət, inkişaf etmiş ölkələrdə, bir tərəfdən əhalinin azalması, digər tərəfdən isə ömrün uzanması müşahidə olunur ki, bu da işçi qüvvəsi ilə pensiyaçıların sayı arasında güclü qeyri-tarazlıq yaratmaqla dövlət büdcəsinə güclü təzyiq göstərir və buna görə də dövlətin ölkəyə immiqrasiyanı təşviq etməsini stimullaşdırır.

- İnkişaf səviyyəsindən asılı olmayaraq, kapitalla işçi qüvvəsi arasında disbalans olan ölkələrdə. Burada da müxtəlif hallar ola bilər.

– Ərazinin böyüklüyü. Bu hal həm yoxsul, həm də yüksək gəlirli ölkələrdə müşahidə oluna bilər. Birinciyə ən yaxşı misal olaraq Monqolustanı, ikinciyə isə Kanadanı göstərmək olar. Burada kapital artıqlığı rolunda torpağın bolluğu çıxış edir. Fərq ondan ibarətdir ki, Monqolustanın əsas ehtiyacı aqrar sahə işçilərinədir, Kanadada isə tələb, həmçinin yeni ərazilərdə iş qura bilən investorlara və bu istehsalatlarda işləyəcək nisbətən yüksək ixtisaslı işçi qüvvəsinədir.

– Ölkənin inkişaf səviyyəsinin yüksək olmaması fonunda kapital və iş yerlərinin artıqlığı. Bunun ən yaxşı misalı Rusiyadır. Burada əhalinin kəskin azalma tendensiyası qonşu postsovet ölkələrindən, xüsusən də 1990-cı böhran illərində buraya işçi qüvvəsi axınını şərtləndirmişdir ki, bəzi belə yoxsul ölkələrdən nisbətən zəif axın hələ indi də davam edir. Eyni

zamanda əhali bolluğuna malik olan Çin fermerlərinin Rusiyanın şərqindəki boş torpaqlarda aqrar sahədə fəaliyyəti də bu amillə izah olunur.

Beləliklə, Neoklassik miqrasiya nəzəriyyəsinə görə ölkələr arasında əmək haqqı tarazlığı (yəni fərqi) pozulanda iki axın yaranır ki, bu da son hesabda yeni tarazlığını yaranması ilə nəticələnir [9, s.2]:

- Real əmək haqqının nisbətən kiçik olduğu ölkələrdən aşağı ixtisaslı işçilərin yüksək maaşlı ölkəyə axını.
- Real əmək haqqının nisbətən yüksək olduğu ölkələrdən aşağı maaşlı ölkəyə əməktutumlu istehsalın və bunun nəticəsi olaraq yüksək ixtisaslı kadrların axını.

**4. Neokeynçi yanaşma**

Məlum olduğu kimi, Keynsi klassiklərin əsas iradı ondan ibarət idi ki, sonuncuların hesab etdiyi kimi, pul yalnız mübadilə vasitəsi deyil, həm də yığım vasitəsidir. Ona görə də tək real əmək haqqı deyil, nominal əmək haqqı arasında da fərq miqrasiyanı şərtləndirir, belə ki, miqrantlar qazancın müəyyən hissəsini vətənə qohumlarına göndərir, həmçinin özləri də vətəndə xərcləyir (məsələn, daşınmaz əmlak alır). Bu məsələdə neokeynçilərin mühüm fərqli qənaəti ondan ibarətdir ki, miqrasiya nəticəsində tarazlıq yaranır, amma real əmək haqqında deyil, işsizlik səviyyəsində [6, s.424].

**5. İkili əmək bazarı nəzəriyyəsi**

1979-cu ildə M. Piore tərəfindən yazılmış “Köçəri quşlar. Əmək miqrantları və sənaye cəmiyyətləri” kitabında irəli sürülən bu nəzəriyyə praktikada mövcud olan işə götürmədə müəyyən meyarlara görə diskriminasiyaya yol verilməsinə və aşağıdakı hökmlərə əsaslanır [4, s.1].

- Bir sıra amillər əmək bazarında çoxlu sayda seqmentlərin əmələ gəlməsinə səbəb olur.
- “İşçi qüvvəsinə tələbin sosial təşkilinin analizi işçi qüvvəsinin təklifinin sosial təşkilinin analizi ilə əlaqəlidir” [4, s.1].
- Əmək bazarının seqmentlərə ayrılması məşğulluğun mühafizəsinə münasibətdən asılı olaraq dəyişir.

Bundan başqa Piore müasir sənaye cəmiyyətinin miqrasiyanı stimullaşdıran 4 xüsusiyyətini qabardır [19, s.9-11]:

1) Struktur inflyasiyası. Piore peşələrin iyerarxik strukturunu qabardır. Yüksək gəlirli ölkələrdə, bir qayda olaraq, aşağı iyerarxik səviyyədə olan vakansiyaya yerli işçinin cəlb olunması üçün işəgötürən ona yüksək maaş təklif etməlidir. Onda o, iyerarxiyanın digər pillələrində olan peşələrin də maaşlarını artırmalı olur ki, buna da “struktur inflyasiyası” adı verilib. Məhz bu problem miqrantların işə cəlb olunmasını şərtləndirir [19, s.9].

2) Motivasiya problemləri. İnsanları maraqlandıran tək əmək haqqı deyil, həmçinin sosial statusdur ki, bu da əhəmiyyətli dərəcədə peşə ilə əlaqədardır. Aydındır ki, bu problemin aradan qaldırılması mümkün deyil, çünki peşələrin iyerarxiyası həmişə mövcud olacaq. Buna görə də işəgötürənlər üçün sosial statusa önəm verməyən və əmək haqqına fokuslanan işçilər lazımdır ki, beləlri də ancaq aşağı gəlirli ölkələrdən olan immiqrantlardır, çünki immiqrantların birinci nəsli özünü qəbul edən ölkədəki insanlarla deyil, həmvətənləri ilə müqayisə edir [19, s.9].

3) İqtisadi dualizm. İkili əmək bazarı nəzəriyyəsi əmək bazarını iki seqmentə bölür: ilkin və ikinci. İlkin seqmentdə istehsal kapitaltutumludur və buna görə də *yüksək əmək haqqı* təklif etməklə peşəkarlığa malik olan işçilər tələb olunur. Belə işçilərin getməməsi üçün xüsusi motivasiyalar yaradılır, xüsusi təhsil proqramları təklif olunur [19, s.10].

İkinci seqment isə əməktutumlu olmaqla, əsasən, aşağı ixtisaslı işçilər tələb edir və buna görə də aşağı əmək haqqı təklif edir. Aşağı əmək haqqı səbəbilə inkişaf etmiş ölkələrin vətəndaşları ikinci seqmentə maraq göstərmir, bu bazarda vakansiyalar yaranır və əmək miqrantlarına tələb meydana gəlir [6, s.413].

Birinci seqmentin əksinə olaraq, əməktutumlu işçilər xırda səbəblərə görə asanlıqla işdən çıxarıla bilər [19, s.10].

4) İşçi qüvvəsinin demoqrafiyası. İkinci Dünya müharibəsindən sonrakı dövrlərə qədər yüksək gəlirli ölkələrdə aşağı iyerarxik peşələrə qadınlar və gənclər cəlb olunurdu. Lakin aşağıdakı üç səbəb işçi qüvvəsinin bu mənbələrini aradan qaldırdı [19, s.11]:

- qadın emansipasiyası – boşanma hallarının artması və qadınların peşəkar karyeraya hədəflənməsi;
- doğumun azalması – inkişaf etmiş ölkələrdə aşağı doğum səviyyəsi immiqrasiya tələbini daha da gücləndirir, belə ki, bir qayda olaraq, bu ölkələrdə ictimai statusun və əmək haqqının aşağı olma səbəbilə aşağı ixtisaslı işlərə, əsasən, gənclər müraciət edir.
- formal təhsilin genişlənməsi və bunun nəticəsi olaraq gənclərin əmək fəaliyyətində xüsusi çəkisinin azalması.

5) İkili əmək bazarı nəzəriyyəsi makromodellərlə müqayisədə fərqli qənaətlər aşkara çıxarır [19, s.12]:

- BƏM işəgötürənlərinin tələbinə əsaslanır.
- Əmək miqrantları üçün sosial status önəmli deyil, buna görə də işəgötürənlər üçün domino effekti yaradan əmək haqqının artırılması problemi aradan qalxır.
- Ev sahibi ölkələrdə aşağı əmək haqqı immiqrant sayının artması nəticəsində azala bilər, lakin immiqrant sayının azalması əməkhaqqını çox da artırmayacaq.
- İmmiqrant əməyindəki tələb hökumətin siyasətindən çox iqtisadiyyatdakı ciddi dəyişikliklər səbəbilə dəyişə bilər.

M. Piore nəzəriyyəsinin əsas çatışmazlığı onun qəbul edən ölkəyə fokuslanması, göndərən ölkələrdəki amilləri nəzərə almamasıdır.

### 6. Əmək miqrasiyasının yeni iqtisadiyyatı

Adından da göründüyü kimi, nisbətən yeni olan və 1985-ci ildə ABŞ tədqiqatçıları Stark və Bloom tərəfindən irəli sürülmüş bu nəzəriyyə həqiqətən də iqtisadi nəzəriyyədə son onilliklərdə üstünlük təşkil edən davranış paradiqması – biheviorizm üzərində qurulmuşdur. İnsanların miqrasiya kimi məsuliyyətli qərarlarının sosial-psixoloji motivlərini araşdıran müəlliflər belə bir maraqlı qənaətə gəlirlər ki, bu məsələdə tək miqrantların deyil, qeyri-miqrantların (yəni miqrasiya haqqında düşünən, lakin bu haqda mənfi qərar verənlərin) da rolu əhəmiyyətlidir.

Əvvəla, müəlliflər yenə də iqtisadi nəzəriyyədə son dövrlərdə geniş istifadə olunan *asimmetrik informasiya* konsepsiyasından istifadə edirlər. Belə ki, onlar qəbul edən ölkədəki işəgötürənlərin əmək immiqrantlarının peşəkarlıq səviyyəsi haqqında məlumatlarının olub-olmaması hallarını fərqləndirirlər. Yeddi səhifəlik məqalələrində konkret misal üzərindən verilən izahın nəticəsi aşağıdakından ibarətdir. Əgər qəbul edən ölkədəki işəgötürənlər immiqrantlarının peşəkarlıq səviyyəsindən xəbərdardırlarsa və məsələn, onların yüksək ixtisaslılarına vətənləri ilə müqayisədə xeyli yüksək əmək haqqı, aşağı ixtisaslılarına isə çox da fərqli olmayan əmək haqqı təklif etsələr, birincilər miqrasiya edəcək ikincilər isə yox və əksinə. Lakin asimmetrik informasiya halında, yəni qəbul edən ölkədəki işəgötürənlərin immiqrantlarının peşəkarlıq səviyyəsi haqqında məlumatları olmasa, onda onlar peşəkarlıq səviyyəsini nəzərə almadan ortalama bir maaş təklif edə bilərlər və bu halda yüksək peşəkarların emiqrasiya stimulu olmayacaq, aşağı səviyyəli peşəkarlar isə miqrasiya edəcək [16, s.174].

Burada müəlliflər ikinci amili – *məhrumiyyət hissi* (deprivation) gündəmə gətirirlər. Onlar bu məlum psixoloji fakta əsaslanırlar ki, əksər insanlar özlərini, əsasən, öz referens qruplarının nümayəndələri (başqa sözlə, müəyyən mənada özləri ilə bir qrupda olan şəxslər, məsələn, həmkarlar, qohumlar və s.) ilə müqayisə edirlər [6, s.174]. Məsələn, təsəvvür edək ki, müəyyən bir referens qrupun nümayəndələri öz gəlirlərini qrupdakı orta gəlirlə müqayisə etməklə məmnunluq və ya məhrumiyyət hissi keçirirlər. Sonuncular miqrasiya etməyə qərar verə bilər. Birinci dalğa miqrasiyadan sonra qrupda orta gəlir artdığından burada yeni marjinal, yəni qeyri-məmnun fərdlər əmələ gəlir ki, bu da miqrasiyanın yeni dalğasına səbəb ola bilər [16, s.175]. Məsələn, sadəlik üçün fərz edək ki, referens qrup 4 nəfərdən (A, B, C, D) ibarətdir və onların gəlirləri uyğun olaraq belədir: A – 1000 manat, B – 2000 manat, C – 3000 manat, D – 4000 manat. Bu halda qrup üzrə orta gəlir 2500 manatdır və A özünü məhrum hiss edərək, miqrasiya edir. Onda qrupda qalan 3 nəfərin orta gəliri 3000 manata qalxır və bu halda B özünü məhrum hiss edə və miqrasiya edə bilər. Təcrübə göstərir ki, məhrumiyyət hissi fərdi, nəinki, öz regionunu tərk edib, miqrasiya etməyə, hətta referens qrupu dəyişməyə təşviq edə bilər. Məsələn, 1990-cı illərdə Azərbaycanda güclü staqflyasiya səbəbilə müəllimlər, həkimlər, mühəndislər kütləvi şəkildə ticarət və tikinti sferasına transfer edirdi. Azərbaycanda

emiqrasiyanı stimullaşdıran daha spesifik bir amili qeyd etməliyik. Azərbaycanda qohumluq və dostluq əlaqələri daha sıx olduğundan fərd özünü daha çox sayda referens qrupunun üzvü hesab edir. Bu halda ola bilər ki, o, özünü həmkarları ilə müqayisədə məhrum hiss etməsin, lakin dost və ya qohumları ilə müqayisədə qeyri-məmnun hiss eləsin və emiqrasiyanın səbəbi məhz bu amil ola bilər.

Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsinin müəllifləri bu fenomeni qeyr-miqrantların miqrasiya prosesində iştirakı kimi dəyərləndirirlər, belə ki, referens qrupunun miqrasiya etməyən məmnun hissəsi, passiv şəkildə də olsa, qrupun başqa üzvlərinin miqrasiya etməsinə səbəb olur.

### 7. Nisbi məhrumiyyət nəzəriyyəsi

Əmək miqrasiyasının yeni iqtisadi nəzəriyyəsinin müəyyən istiqamətdə dərinləşməsi olan bu konsepsiya birincinin müəlliflərindən biri Stark və digər tədqiqatçı Taylor tərəfindən irəli sürülmüşdür. Burada iki məqam xüsusilə vurğulanır:

- Nisbi məhrumiyyət hissinin gəlirlərin həddindən qeyri-bərabər paylandığı cəmiyyətlərə xas olması [18, s.2].
- İqtisadi cəhətdən zəif olan ölkələrlə inkişaf etmiş ölkələr arasında ticarət birincilərin daha da zəifləməsinə və əhalinin daha da yoxsullaşmasına səbəb olur [9, s.414].

Hər iki amil zəif ölkələrdən miqrasiyanı gücləndirir.

### 8. İnstitusional nəzəriyyə

Hər hansı bir istiqamətdə beynəlxalq miqrasiya kütləvi şəkil alanda miqrasiyanı asanlaşdıran institutların meydana gəlməsi təbiidir. Bu institutlar kommersiya xarakterli və ya pulsuz xidmət göstərə bilər, həm leqal ola bilər, həm də qeyri-leqal ola bilər. Sonuncu halda təqdim olunan sənədlər saxta və daşımalar isə qeyri-qanuni ola bilər [6, s.414]. Məsələn, Rusiyada qastarbayterlərin böyük əhəmiyyətli hissəsi saxta sənədə malikdir, Suriyadan Avropaya qaçqın daşımalarının bir hissəsi qeyri-qanunidir ki, bu da bir çox hallarda qaçqınların ölümü ilə nəticələnir.

İnstitusional şəbəkələrin formalaşması miqrasiyanı intensivləşdirməklə digər dəstəkləyici tədbirləri də stimullaşdırır – aviareyslərin sayı artır, bu isə növbəti miqrantların səfərlərini ucuzlaşdırmaqla onların qəbul edən ölkəyə gəlmələrini daha da stimullaşdırır.

Belə institutların formalaşması, əsasən, qəbul edən ölkədən hər hansı etnik immiqrantların çoxalması və onların öz həmvətənlərini də bu ölkəyə cəlb etmə niyyəti ilə şərtlənir.

Müəyyən mərhələdə ölkələr arasında mədəni əlaqələri gücləndirən institutlar əmələ gəlir ki, bu da miqrasiyanı təşviq edən əhəmiyyətli amildir.

**9. Dünya sistemləri nəzəriyyəsi**

Bu, bilavasitə miqrasiya nəzəriyyəsi deyil. Dünya sistemləri nəzəriyyəsi dünyada baş verən bütün proseslərə daha geniş və tarixi prizmadan yanaşır və bu çərçivədə miqrasiya məsələləri də izah olunur. Nəzəriyyə onun yaradıcısı Vallerstaynın 1974-cü ildəki əsərində irəli sürdüyü aşağıdakı tərifi üzərində qurulub: "Dünya sistemi sakinlərinin gündəlik həyatı üçün zəruri olan əmtəə və xammal istehsalı və mübadiləsini təmin edən ərazi üzrə multikultural əmək bölgüsüdür" [2, s.462].

Növbəti 50 ildə nəzəriyyənin təkamülü nəticəsində Mario Coccia 2019-cu ildə aşağıdakı yeni tərifi təklif edir: "Dünya sistemləri nəzəriyyəsi beynəlxalq bazar ticarət mexanizmlərinin, mərkəzi və periferik bölgələr arasında iqtisadi əmək bölgüsünün və bazarlarda kapitalist sinfinin maraqlarının təhlil vasitəsilə kapitalist dünya iqtisadiyyatının iqtisadi inkişafını və dinamikasını izah edən, sosial-iqtisadi və siyasi yanaşmadır" [1, s.1].

Bu təriflərdəki fərqə baxmayaraq, dünya sistemləri nəzəriyyəsinin kökündə indi dünyada hakim olan kapitalizm formasiyasının əsas iqtisadi məqsədi olan kapitalın yığımı qanunu durur. İlkin olaraq Avropada hakim olan kapitalizm cəmiyyətində sonsuz kapital yığımının məntiqi mərhələsi yeni təbii resurs mənbələrinin, yeni satış bazarları və ucuz işçi qüvvəsinin fəthi oldu. Beləliklə, kapitalist ölkələri başqa əraziləri zəbt etdi və müstəmləkələrdən sərvətlər metropoliyalara axmağa başladı. İkinci dünya müharibəsindən sonra müstəmləkə sistemi dağılsa da guya siyasi müstəqillik əldə olunsa da, elmi ədəbiyyatda periferiya ölkələri kimi tanınan keçmiş müstəmləkə ölkələrinin iqtisadi asılılığı nəinki azalmadı, bəzi hallarda hətta gücləndi – periferiya ölkələri məhdud sayda məhsul (əsasən, xammal və ilkin tələbat malları) ixrac edir və bu məhsulların dünya bazar qiymətlərinə təsiri də keçmiş metropoliyalara məxsusdur. Bu amil periferiyanın zəif iqtisadi artımını və digər ölkələrdən güclü asılılığını şərtləndirir [6, s.429-430].

Təsvir olunan proseslərə digər prizmadan baxmaqla bu nəzəriyyə çərçivəsində digər nəzəriyyələrin miqrasiyaya baxışından fərqli maraqlı fikirlər meydana gəlir. Belə ki, periferiya ölkələrində aşağı ixtisaslı işçi qüvvəsinin mərkəz ölkələrlə müqayisədə əhəmiyyətli dərəcədə ucuzluğu əməktutumlu sahələrin bu ölkələrə köçürülməsinə səbəb olur. Nəticədə bu kateqoriya işçilərin əmək haqları ölkələr üzrə bərabərləşir və onların miqrasiyası mənasını itirir [6, s.430].

Beynəlxalq miqrasiyanın qloballaşan dünya bazarının siyasi və iqtisadi təşkilinə əsaslandığını iddia edən Dünya sistemi nəzəriyyəsi faktiki olaraq altı hipotez irəli sürür [19, s.16-17]:

- BƏM aşağı gəlirli ölkələrdə liberal bazarın formalaşmasının təbii nəticəsidir və qlobal əmək bölgüsünün periferik bölgələrə nüfuz etməsi BƏM üçün katalizatordur.
- BƏM əmtəə və kapital axınının nəticəsi olaraq əks istiqamətə yönəlmişdir, belə ki, TMK investisiyaları periferik ölkələrdə əhalinin mobilliyini şərtləndirir.

- Müstəmləkəçilik sistemi BƏM-in intensivləşməsinə xüsusi töhfə verir – əsrlərlə qurulmuş ortaq dil, mədəni çulğalaşma, rabitə və nəqliyyat əlaqələri transmilli əmtəə və əmək bazarlarının və şəbəkə sistemlərinin formalaşmasına səbəb olmuşdur.
- Qloballaşan iqtisadiyyatda hökumətlər immiqrasiya proseslərinin tənzimlənməsi iki əsas istiqaməti əhatə edir: 1) korporasiyaların xarici investisiya fəaliyyətinə nəzarət; 2) beynəlxalq kapital və mal axınlarının tənzimlənməsi.
- Aparıcı ölkə hökumətləri xaricdəki investisiyaları qorumaq məqsədilə siyasi və hərbi müdaxilədən istifadə edir, bu, uğursuz olduqda BƏM-in başqa forması olan xüsusi əsas ölkələrə qaçqınların köçürülməsinin təşkil edilməsi.
- BƏM son nəticədə qlobal iqtisadiyyatın quruluşundan və qlobal bazarların yaradılması dinamikasından asılıdır, ölkələr arasındakı əmək haqqı və ya məşğulluq fərqlərinin təsiri isə azdır.

**10. Şəbəkə nəzəriyyəsi**

Bu nəzəriyyə beynəlxalq miqrasiyanın davamlılığını izah edir. Miqrantların kütləvi axınını qəbul edən ölkədə etnik tərkibi dəyişir. Məsələn, bu, Avropada xüsusilə müşahidə olunur. Nəticədə müəyyən etnik şəbəkələr meydana gəlir ki, bu da miqrasiyanı asanlaşdırmaqla daha da stimullaşdırır. İnstitusional nəzəriyyəyə oxşarlığı olsa da, şəbəkə nəzəriyyəsi institutları deyil, sosial kapitalı qabartması ilə fərqlənir [3].

**11. Osmos nəzəriyyəsi**

Fizika və kimya elmlərindən götürülən “osmos” termini, sadə desək, diffuziya anlamına gəlir və molekulların daha az olan mühitdən daha çox olan mühitə keçidini əks etdirir. Osmos nəzəriyyəsi miqrasiyanı bu bioloji prosesə, ölkələri hüceyrəyə, sərhədləri hüceyrələr arasındakı yarıkeçilməz membrana, insanları isə su ionlarına oxşatmaqla izah etməyə çalışır. Miqrasiyanın osmos nəzəriyyəsi miqrasiyanı iki növə bölür: sadə və mürəkkəb. Sadə miqrasiya bəşəriyyətin ilk dövrlərinə xas olan miqrasiya amillərinə - təhlükəsizlik, suya əlçatanlıq, iqlim və qəbul edən ərazidə əhalinin sıxlığına əsaslanır. Növbəti mərhələlərdə yuxarıda təsvir olunan işsizlik, əmək haqqı, miqrasiya üzrə dövlət siyasəti və digər yeni determinantlarla səciyyələnən mürəkkəb miqrasiya meydana gəlmişdir. İonlara oxşar olaraq insanlar miqrasiya təzyiqi az olan ölkələrdən çox olan ölkələrə köç edirlər. Mürəkkəb miqrasiya daha yüksək templərlə təkamül edir.

**12. Mikrofərdi yanaşma**

Victor Piche öz fundamental məqaləsində [11, s.142] bu termini istifadə etməklə miqrasiya qərarının fərd səviyyəsində verilmə mexanizminə işarə edir. Lakin ondan da əvvəl Sjaastad bu fenomenə sırf iqtisadi aspektdən yanaşaraq, miqrasiyanı təhsil və təcrübə ilə yanaşı insan kapitalına yatırılan bir investisiya aktı kimi tədqiq etmişdir. Bu baxımdan onun məqaləsinin adının da “İnsan miqrasiyasının xərcləri və verimləri (The costs and returns of

human migration)" olması səciyyəvidir. O yazır: "… biz miqrasiyaya insan resurslarının məhsuldarlığını yüksəldən investisiya kimi baxırıq; xərclərlə müşayiət olunan, həmçinin mənfəət gətirən investisiya" [15, s.83].

Sjaastadın ardınca Pensilvaniya Universitetinin tədqiqatçısı Everett Lee fərdi amili daha da inkişaf etdirərək, 1966-cı ildə belə bir fikir irəli sürdü ki, insanları miqrasiyaya təhrik edən əsas amil tərk olunan və gedilən bölgələrdəki obyektiv xüsusiyyətlər deyil, bu bölgələr haqqında fərdi təsəvvürdür [7, s.54]. Onu da qeyd edək ki, Lee bu ideyalara əsaslanaraq, yeni miqrasiya motivlərinin və buna uyğun olaraq yeni miqrasiya nəzəriyyələrinin, o cümlədən yuxarıda qeyd olunan şəbəkə konsepsiyası və bazar seqmentasiyası paradiqmasının yaranacağını proqnozlaşdırmışdır [11, s.143].

Leenin başladığı fərdi yanaşma Zelinski, Gregory, Piché, Mertens, Portes və digər tədqiqatçılar tərəfindən inkişaf etdirilmişdir [11, s.144].

### 13. Makrostruktur yanaşma

Mabogunjenin kənd yerlərindən miqrasiya üçün irəli sürdüyü sistemli yanaşma amerikan alimi Maykl Buravoy tərəfindən inkişaf etdirilərək, sirkulyar miqrasiya fenomenin nəzəri cəhətdən daha da zənginləşdirilmişdir. Öz tədqiqatlarını ABŞ, Meksika və CAR timsalında aparan Buravoyun əsas töhfəsi ondan ibarətdir ki, o, "bazar qüvvələrinin təsiri ilə öz maraqlarını maksimallaşdırmağa çalışan rasional miqrant" anlayışına tərif verərkən təklif etdiyi modelə siyasi və struktur dəyişənlərini əlavə edir. O həmçinin təkrar istehsal funksiyası ilə işçi qüvvəsini coğrafi cəhətdən bir-birindən ayırır. Onun fikrincə miqrasiyanın baş tutması üçün yalnız iqtisadi amillər kifayət deyil, siyasi institutların da rolu önəmlidir. Belə ki, miqrant vətənini tərk edərkən ilk dövrlərdə həm özünün qürbətdə, həm də qohumlarının vətəndə maddi dəstək məsələsində sığortalı olmalıdır ki, bu da dövlət institutları tərəfindən təmin olunur. Bu fikirləri ilə Buravoy iqtisadi amillərə əsaslanan klassik yanaşmaları, faktiki olaraq, təkzib edir. Belə ki, klassik yanaşma hesab edir ki, iqtisadi inkişaf miqrasiyaya yol açaraq, sənayeyə qədərki cəmiyyətin dağılmasını təşviq edir. *Buravoyun sirkulyasiya nəzəriyyəsi* isə hökm edir ki, ev təsərrüfatlarına əsaslanan sənayeyə qədərki cəmiyyət məhv ola bilməz, çünki o, həm vətəndə qalan ailə üzvlərinin, həm də miqrantın özünün sosial müdafiəsini təmin etməlidir [11, s. 146].

### 14. Əmək miqrasiyasının yeni iqtisadiyyatı

1985-ci ildə çap olunmuş eyni adlı məqalədə müəlliflər Stark və Bloom insan kapitalını qabardan Neoklassik nəzəriyyəni tənqid edərək, sosial kapitalı – qohumluq əlaqələrinə əsaslanan şəbəkə kapitalını ön plana çəkmişlər. Empirik məlumatlar əsasında miqrasiyanı ev təsərrüfatları səviyyəsində tədqiq edən müəlliflər miqrantların öz ailələri ilə əlaqələrini və bu əsasda ailə üzvləri arasında risklərin birləşdirilməsi və idarə olunmasını və beləliklə, yaradılan sosial sığorta zəminini vurğulayır. Onlar yazırlar ki, miqrant da miqrasiya qərarını təkbaşına deyil, vətəndə qalan ailə üzvləri, yeni qeyri-miqrantlarla birgə qəbul edir və bu qərarda qeyri-

aşkar şəkildə olsa da, xərc və gəlirlərin bölüşdürülməsi razılaşdırılır. Məsələn, miqrantın ailə üzvlərinə göndərdiyi pul məhz belə qeyri-aşkar müqavilənin təzahürüdür. "Bundan başqa bu yanaşma miqrasiya nəzəriyyəsinin fokusunu fərdi müstəqillikdən (təbiətə nəzərən optimallaşdırma) qarşılıqlı asılılığa (bir-birinə münasibətdə optimallaşdırma) sürüşdürür, başqa sözlə, o, miqrasiyaya bir ümidsizlik və sonsuz optimizm kimi deyil, "hesablanmış strategiya" kimi baxır [17, s. 174-175].

Bir miqrant üçün şərh etdiyimiz bu hal qrup şəklində miqrasiya edən qohumların sayı artdıqca miqyas hesabına risklərin bölünməsini və sığortalanma səviyyəsini artırır. Digər tərəfdən ilk mərhələdə qohumların miqrantlığa cəlb olunması əlverişli olsa da, gələnlərin sayı artdıqca rəqabət mühiti yarana bilər.

### 15. Miqrasiya şəbəkələri nəzəriyyəsi

Müxtəlif müəlliflər miqrasiya prosesində şəbəkələrin roluna toxunmuşlar. Lakin bu sahədə ən çox töhfənin Boydun 1989-cu ildə Beynəlxalq Miqrasiya icmalında çap etdirdiyi "Beynəlxalq miqrasiyada ailə və şəxsi əlaqələr: son hadisələr və yeni gündəmlər" məqaləsində verildiyi qeyd olunur. Boyd şəbəkələri miqrantın vətəni ilə təyinat yerləri arasında əlaqə yaradan və bu məqsədlə mikrosəviyyədə müxtəlif subyektlər, makrosəviyyədə isə nisbətən böyük struktur qüvvələr arasında vasitəçi rolunu oynayan mexanizm kimi təqdim edir. Boydun şəbəkələr sistemində ailə mərkəzi rol oynayır [11, s.148].

### 16. Kumulyativ səbəb-nəticə əlaqəsi modeli

Bu yanaşma 1990-cı ildə D. Messi tərəfindən irəli sürülmüşdür. ABŞ-da miqrasiya proseslərini tədqiq edən Messi miqrasiyanı gücləndirən amilləri iki qrupa bölür: miqrasiyaya təkan verən amillər və onun davamını şərtləndirən dəstəkləyici amillər. Messinin fikrincə, sosial strukturun elementi olan şəbəkələr miqrasiyaya əks əlaqə reaksiyası ilə cavab verərək, onu dəstəkləyir. Müəllif miqrasiyanın bu yolla özü özünü daha da gücləndirmə mexanizmini "kumulyativ səbəb-nəticə əlaqəsi" adlandırmışdır [8, s.17].

Şəbəkələr riskləri azaltmaq, səmərəni artırmaq imkanı verir. Beləliklə, miqrasiya şəbəkələri miqrasiya ehtimalını daha da artıran sosial kapitala çevrilir [10, s.1263].

Bəzi müəlliflər Messinin modelindəki şəbəkənin eyni coğrafi mənşədən olan ailə üzvləri ilə məhdudlaşmadığını, digər maraqlı tərəfləri də ehtiva etdiyini qeyd edir. Bu maraqlı tərəflər vətəndə yerləşdiyi kimi təyinat ölkəsində də ola bilər. Sonuncuların ən geniş yayılmış nümayəndəsi kimi işə götürənləri misal göstərmək olar – onlar ucuz miqrant işçi qüvvəsinə maraqlıdırlar. Bundan başqa son onilliklərdə insan alveri də geniş yayılmışdır [11, s.148]. Bu fəaliyyətlər əksər hallarda cinayət xarakterli olsa da, leqal da ola bilər. Sonuncular, bir qayda olaraq, "beyin ovçuluğu" ilə məşğul olur.

Onu da qeyd edək ki, indiyədək miqrasiya üzrə tədqiqatlar və miqrasiya nəzəriyyələri, əsasən, kişilərin yerdəyişməsinə fokuslanmışdır. Lakin son dövrlərdə qadın təşkilatlarının

təşəbbüsü ilə qadın miqrasiyası məsələləri də gündəmə gətirilir. Bununla əlaqədar, əsasən, kriminal hadisələr qabardılsa da, aydındır ki, qadın miqrasiyası pozitiv xarakterli də ola bilər.

**Nəticə.**

1. Tədqiq olunan nəzəriyyələr, xüsusən, Sjaastad yanaşması miqrasiya qərarının mənəvi tərəflərini lazımınca qiymətləndirmir, halbuki bu, müasir dövrümüzdə insan həyatının bu aspektinin mühüm amilə çevrilməsi müşahidə olunur. Bir tərəfdən, Qərb sivilizasiyası ənənəvi dəyərlərdən uzaqlaşaraq, mənəvi cırlaşmaya uğrayır. Digər tərəfdənsə son onilliklərdə Qərb dəyərlərinə meyil etməsinə rəğmən, Şərq ölkələrində əks tendensiya - konservativizm, yəni milli dini və mənəvi dəyərlərə qayıdış fenomeni aşkar görünür. Türkiyədəki seçkilərdə milli prioritetin qalib gəlməsi də bunun bariz nümunəsidir. Maraqlı olan Qərb ölkələrində də, Rusiyada da konservativ meyillərin baş qaldırmasıdır.

Burada mənəvi məsələlərin çoxvektorluluğu da (ailə dəyərləri, dini dəyərlər, vətənə bağlılıq və s.) xüsusilə qeyd olunmalıdır.

2. Bundan başqa bu nəzəriyyələrin müəyyən bir qismi Qərb sivilizasiyasının xüsusiyyətlərinə əsaslanır və onların Azərbaycan kimi ölkələrə tətbiqində diqqətli olmaq lazımdır. Məsələn, Buravoyun sirkulyar sistem nəzəriyyəsinin iki mühüm fundamentindən biri miqrant göndərən ölkədə sosial müdafiə institutlarının adekvat fəaliyyət göstərməsi şərtidir. Bu onunla izah olunur ki, ölkəni tərk edən şəxs getdiyi ölkədə stabil gəlir əldə edənədək həm onun özünün, xüsusən də vətəndə qalan qohumlarının dövlətin dəstəyinə ehtiyacı vardır. Lakin bu fərziyyə Azərbaycanda əksər hallarda böyük önəm daşımır. Belə ki, milli mentalitetimizə uyğun olaraq yoxsul ailələrin daha təminatlı qohumlar tərəfindən maddi dəstəklənməsi ənənəsi ölkəmizdə, xüsusən də daha ehtiyaclı olan kənd yerlərində hələ də qalmaqdadır. Buna görə də Azərbaycandan emiqrasiya ailəyə bağımlılıq baxımdan rahat olmasa da, ailənin qohumlar tərəfindən dəstəklənməsi baxımından nisbətən asandır.

## Ədəbiyyat

1. Coccia M. (2019), Comparative world-systems theories. Global Encyclopedia of Public Administration, Public Policy and Governance.
2. Coccia M. (2018), World-System theory: A sociopolitical approach to explain world economic development in a capitalistic economy. Journal of Economics and Political Economy, Vol.5, No.4, 459-465. http://dx.doi.org/10.1453/jepe.v5i4.1787
3. Coleman D. (2015), Migrants and migration in Europe. In International Encyclopedia of the Social & Behavioral Sciences (Second Edition). https://www.sciencedirect.com/topics/social-sciences/migration-theory#:~:text=According%20to%20this%20network%20theory%2C%20migration%20becomes%20easier,and%20searching%20for%20employment%20in%20the%20host%20country

4. Elger T. (2016), Dual labor market theories. The Wiley Blackwell Encyclopedia of Race, Ethnicity and Nationalism, First Edition. Edited by Stone J., Dennis R.M., Rizova P.S., Smith A.D. & Hou X. New Jersey: John Wiley & Sons, 1-4. DOI: 10.1002/9781118663202.wberen09
5. Grigg D.B. (1977, January), Laws of migration. Journal of Historical Geography, Vol.3, No.1, 41-54.
6. Jennissen R. (2007), Causality chains in the international migration systems approach. Population Research and Policy Review, Vol.26, No.4, 411-436. DOI 10.1007/s11113-007-9039-4
7. Lee E.A. (1966), Theory of migration. Demography, Vol.3, No.1, 47-57. https://doi.org/10.2307/2060063
8. Massey D. (1990), Social structure, household strategies and the cumulative causation of migration. Population Index, Vol.56, No.1, 3-26.
9. Oeberg S. (1995, June), Theories on interregional migration: An overview. IIASA Working Paper WP-95-047, 29.
10. Palloni A., Massey D.S., Ceballos M., Espinosa K., Spittel M. (2001), Social capital and international migration: A test using information on family networks. American Journal of Sociology, Vol.106, No.5, 1262-1298.
11. Piche V. (2013), Contemporary migration theories as reflected in their founding texts. Population, Vol.68, No.1, 141-164.
12. Ravenstein E.G. (1885), Laws of migration. Journal of the Statistical Society of London, Vol.48, No.2, 167-235.
13. Ravenstein E.G. (19 May, 2023), Laws of Migration. https://www.studysmarter.us/explanations/human-geography/population-geography/ravensteins-laws-of-migration/
14. Ravenstein E.G. (20 May, 2023), Laws of Migration. https://www.mrtredinnick.com/uploads/7/2/1/5/7215292/ravensteins_laws_of_migration
15. Sjaastad L.A. (1962), The costs and returns of human migration. Journal of Political Economy, Vol.70, No.5, part 2, 80-93.
16. Stark O., Bloom D.E. (1985), The new economics of labor migration. The American Economic Review, Vol.75, No.2, 173-178.
17. Stark O., Bloom D.E. (1985), The new economics of labor migration. The American Economic Review, Vol.75, No.2, 173-178.
18. Stark O., Taylor E. (1989), Relative deprivation and international migration. Demography, Vol.26, No.1, 1-14.
19. Абылкаликов С.И., Винник М.В. (2012), Экономические теории миграции: рабочая сила и рынок труда. Бизнес. Общество. Власть, No.12, 1–19.